*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Azərbaycan ədəbiyyatşünaslığı, 2024, № 1*
*Səhifə: 176-183*
*https://doi.org/10.59849/2663-4406.2024.1.176*

*ISSN: 2663-4406*
*E-ISSN: 2709-2699*

# MƏTBUAT TARİXİ

## Naxçıvanın mətbuat tarixinə bir nəzər

***Naxçıvan Muxtar Respublikası – 100***

**Vüqar Əhməd**
Filologiya elmləri doktoru, professor
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
E-mail: vuqar.ehmed.63@mail.ru

**Annotasiya.** Məqalədə XIX əsrin sonu XX əsrin əvvəllərində Naxçıvanda mətbuatın yaranmasını şərtləndirən başlıca amillər və mətbuatın inkişaf tarixindən bəhs edilir. Məqalədə Azərbaycanda mətbu nəşrlər sırasında az qala bir əsrlik tarixdə fasiləsiz nəşr olunan yeganə qəzet kimi "Şərq qapısı"nın fəaliyyətə başlaması ilə yeni mərhələyə qədəm qoyan mətbuatın keçdiyi şərəfli yol barədə söhbət açılır. Eyni zamanda dahi rəhbər Heydər Əliyevin Azərbaycana rəhbərliyinin hər iki mərhələsində Naxçıvanda mətbuatın inkişaf meyilləri, mətbuata qayğısı təhlil süzgəcindən keçirilir. Müstəqillik illərində yeni forma və məzmun əldə edən Azərbaycan mətbuatının bayraqdarı olan "Şərq qapısı" qəzetinin dövlət və KİV münasibətlərinin tənzimlənməsindəki rolu da araşdırılan mövzular sırasındadır.
XX əsrin 90-cı illərinin əvvəllərində Naxçıvanda mətbuat müstəqillik ideyalarının həyata keçirilməsində fəal mübarizə aparmışdır. Yuxarıda qeyd olunduğu kimi, Ümummilli liderimiz Heydər Əliyevin Moskvadan Naxçıvana qayıdışından sonra dövri mətbuatda yeni dövr başlanmış, çoxsaylı mətbu orqanları ölkəmizin düşdüyü bəlalardan yeganə xilas yolunu görkəmli dövlət xadimi Heydər Əliyevin yenidən siyasi hakimiyyətə qayıdışında görmüş, bu mövzuda yazılarla çıxış etmiş, Muxtar respublikanın düşdüyü informasiya blokadasının aradan qaldırılmasında mühüm rol oynamışlar.
**Açar sözlər:** Naxçıvan, mətbuat, qəzet, müxbir, rubrika

**Məqalə tarixçəsi:** göndərilib – 16.05.2024; qəbul edilib – 24.05.2024





## A glance at the history of press in Nakhchivan

***Nakhchivan Autonomous Republic – 100***

**Vugar Ahmad**
Doctor of Philological Sciences, Professor
Institute of Literature named after Nizami Ganjavi of ANAS
E-mail: vuqar.ehmed.63@mail.ru

**Abstract**. In the article is dealt with the main factors of the formation of the press in Nakhchivan at the end of the 19th century and the beginning of the 20th century and the history of press development. The newspaper "Sherg Gapisi" has been published continuously for almost a century among the press publications in Azerbaijan; and in the study is mentioned about the honorable path of the press, which entered a new stage with the start of broadcasting of this newspaper as the only one. In the article is analyzed the tendencies in the development of the press in both stages of the leadership of the genius leader Heydar Aliyev to Azerbaijan and his concern for the press. The role of the newspaper "Sherg Gapisi", which acquired a new form and content during the years of independence, in the regulation of relations between the state and the mass media is studied.
The press of Nakhchivan actively contended for the realization of the ideas of independence in the early 90s of the 20th century. As mentioned above, a new era began in the life of periodical publishing after our National Leader, Heydar Aliyev's return from Moscow to Nakhchivan, numerous press agencies saw the only way out of our country's troubles in the return of the outstanding statesman Heydar Aliyev to political power, many articles were written on this topic and they played an important role in removing the information blockade that the autonomous republic fell into.
**Keywords**:Nakhchivan, press, newspaper, reporter, rubric

**Article history:** received – 16.05.2024; accepted – 24.05.2024

### Giriş / *Introduction*

Naxçıvan çox-çox qədimlərdən dövrümüzə qədər böyük bir inkişaf dövrü keçmişdir. XIX əsrin axırlarında, XX əsrin əvvəllərində isə dövrün təlatümləri, ziddiyyətləri, müharibələri ilə üzüzə qalan Naxçıvan bütün bunlara baxmayaraq, böyük bir sıçrayışla tərəqqi etmişdir.

XIX əsrin sonu, XX əsrin əvvəllərində Naxçıvan bölgəsinin maarifpərvər ziyalıları təhsillə bağlı; yeni üsullu məktəblərin yaradılması, təlimin ana dilində aparılması, qızların təhsilə cəlb edilməsi, milli müəllim kadrlarının hazırlanması, əlifba islahatı və s. kimi işlərdə inanılmaz şəkildə fəallıq göstərmiş, eyni zamanda xalqın mədəni inkişafından ötrü əllərindən gələni əsirgəməmişlər.

### Əsas hissə / *Main part*

1832-ci ildə "Tiflis əxbarı" qəzeti və 1845-ci ildə "Zaqafqazski vestnik" qəzetinə "Qafqazın bu tərəfin xəbəri" adlı Azərbaycanca buraxılan əlavə milli mətbuatın yaradılması istiqamətində atılmış ilk addımlar olmuşdur. Rəsmi bülleten xarakteri daşıyan həmin nəşrlər sözün əsl mənasında hələ qəzet adlandırıla bilməzdi.

XIX əsrin ikinci yarısında Həsən Bəy Zərdabinin yaratdığı Əkinçi" qəzeti öz çevrəsinə Axund Əhməd Hüseynzadə, Seyid Əzim Şirvani, Nəcəf bəy Vəzirov, Əsgərağa Gorani, Məhbus Dərbəndi, Həsən Əlqədari, Məhəmməd Tağı Əlizadə, Möhsün Badukubeyi, Kapitan Sultanov, Həsən Qara və

s. kimi tərəqqipərvər ziyalılarını toplayaraq fəaliyyətə başladı. Lakin müsəlmanlara qarşı olan haqsızlıqlar səbəbindən iki ildən sonra qəzet öz fəaliyyətini dayandırdı. 1879-cu ildən fəaliyyətə başlayan "Ziya"nın səhifələrində S.Ə.Şirvani, H.Zərdabi, İ.Nazir, M.R.Danış, İ.Nakam, S.Vəlibəyov və s. kimi qabaqcıl ziyalılar iştirak edirdilər, lakin əfsuslar olsun ki, 1884-cü ildə bu qəzet də öz fəaliyyətini dayandırmağa məcbur oldu. XIX əsrin axırlarından isə maarifpərvər insanlarımız əvvəlcə rus dilində, sonra isə yəni, 1906-cı ildən etibarən bir-birilə yarışa girirmiş kimi heyrətamiz bir sıçrayışla "İttifaq", "Tərəqqi", "Səda", Sədayi-haqq", "Təzə həyat", "Hümmət", "Kaspi", "Füyuzat", "Yeni Füyuzat", "Arı", "Babayi-Əmir", "Tuti", "Məzəli", "Kəlniyyət", "Şəlalə", "İrşad", "İttifaq", "Zənbur", "İqbal" Həyat", Füyuzat", "Təkamül" və s. mətbu orqanları yaratmışlar.

Lakin bu mətbu orqanları Bakıdan çox uzaqda yerləşən Naxçıvanın mətbuat tələbatını kifayət qədər ödəyə bilmirdi. Çünki 1880-ci ildə çəkilən Bakı-Tiflis dəmiryolu Naxçıvanda çox uzaqlardan istiqamət edirdi, yəni Naxçıvandan Bakıya gediş-gəliş çox çətin idi. XX əsrin lap əvvəllərindən Tiflisdə naxçıvanlı Məhəmməd Şahtaxtinski "Şərqi-rus" qəzetini buraxsa da, Tiflisin də Naxçıvanla məsafəsi uzaq idi, yəni naxçıvanlı ziyalıların o qəzeti də oxumaları üçün xeyli müddət lazım olurdu. Qəzetin xülasəsini belə teleqrafla yollamaq çox baha başa gəlirdi. Bu səbəbdən də Naxçıvanın qabaqcıl ziyalıları bir yerə toplaşıb belə qərara aldılar ki, Naxçıvan əhalisini maarifləndirməkdən ötrü bir mətbu orqan yaratsınlar.

1921-ci ildən etibarən, "Cavanlar həyatı" və "Füqəra səsi" adı altında fəaliyyətə başlayan, daha sonra "Şərq qapısı" adlandırılan qəzeti fəaliyyətə başladığı ilk illərdə ərəb qrafikası əsasında yaradılmış Azərbaycan əlifbası ilə nəşr olunan saylarında Naxçıvanın tarixi və tarix-mədəniyyət abidələri, onların qorunması, tədqiqi və təbliği ilə əlaqədar işıq üzü görən məqalələr bu gün də öz aktuallığını itirməmişdir. Onlar Azərbaycanın tərkib hissəsi olaraq Naxçıvan tarixinin mənbəyi kimi mühüm əhəmiyyət kəsb edirlər. Bu baxımdan xüsusilə dövrün qabaqcıl, savadlı insanları tərəfindən qələmə alınan həmin məqalələrdə haqqında bəhs olunan (məsələn, Ordubad şəhərindəki Came məscidində 1902-ci ildə tapılan hicri 111-ci il, miladi 729-cu il tarixli kitabə kimi), ancaq bu günə qədər gəlib çatmayan mənbələr barədə verilən məlumatlar tarixi baxımdan çox böyük əhəmiyyətə malikdirlər.

Nəzərdən keçirdiyimiz məqalələr əsasında deyə bilərik ki, keçən yüzilliyin 20-ci illərinin ortalarında "Şərq qapısı" qəzetinin səhifələrində tarix-mədəniyyət abidələrimizlə əlaqədar dərc etdirilən məqalələr artıq tarix və mədəniyyətimiz üçün sanballı qaynaqlara çevrilmişlər. Heç təsadüfi deyildir ki, "Şərq qapısı" qəzetinin 100 illik yubileyinin qeyd olunması barədə" Sərəncamın preambula hissəsində "Şərq qapısı" qəzeti "Naxçıvanın tarixini və keçdiyi inkişaf yolunu gələcək nəsillərə çatdıran salnamə" kimi xarakterizə olunmuşdur.

Seyid Səbri (1896-1974) elmi və bədii yaradıcılıqla da məşğul olmuş, Naxçıvan Muxtar Respublikasının ictimai-siyasi, elmi və mədəni mühitində özünəməxsus iz buraxan bir ziyalı və yaradıcı şəxs olmuşdur. "Şərq qapısı" qəzetinin ilk müxbirlərindən biri olan S.Səbri məqalələrini nəinki təkcə bu qəzetdə, həmçinin Tiflisdə çıxan "Yeni fikir" qəzetində dərc etdirmişdir. Araşdırmalar nəticəsində S.Səbrinin "Şərq qapısı" qəzetinin 1925-1926-cı illərdəki nömrələrində "S.S.", "Səbri", "Seyid Səbri" imzaları ilə çap olunan xeyli məqaləsi aşkara çıxarılmışdır. Həmin illərdə işıq üzü görən "Darülmüəllimində", "Axşam texnikumu lazımdır", "Hansı vasitələrlə qəzetəmiz intişar tapar", "Tazə hakim", "İt boğuşdurmaq", "Su işçilərinin yaxşılarından istifadə etməli", "Oğurluq", "Məhkəmədə", "Kooperativ lazımdır", "Bu gün" məqalələrinin əsas mövzusu maarif və mədəniyyətin təbliği, gerilik, xurafat və nadanlığın tənqidi, bəzi neqativ hallar və şəhər həyatı ilə bağlı problemlər olmuşdur.

"İkinci Dünya müharibəsi illərində "Şərq qapısı" qəzeti xüsusilə faşizmə qarşı ciddi ideoloji mübarizə aparmış, öz oxucularını qələbəyə inama səsləmiş, cəmiyyətdə vətənpərvərlik ruhunun yüksəldilməsinə vəsilə olmuşdur. Ötən əsrin 70-ci illərində Ümummilli lider Heydər Əliyevin Azərbaycanın rəhbəri seçilməsindən sonra ölkəmizin bütün bölgələri kimi, Naxçıvan da inkişaf





yoluna çıxmış, böyük quruculuq proqramlarının gerçəkləşdirildiyi bir diyara çevrilmişdir. Yeni qəsəbələrin, mikrorayonların, zavod və fabriklərin, elm, məktəb və mədəniyyət ocaqlarının açılışı, kənd təsərrüfatının inkişafı həmin dövrdə qəzetlərin səhifələrini bəzəmişdir. Ulu öndər "Şərq qapısı"nın nəşrinin 50 illiyi münasibətilə qəzeti "Şərəf nişanı" ordeni ilə təltif etmişdir. Ümummilli lider Heydər Əliyevin sovet Azərbaycanına rəhbərliyi illərində mətbuata ideoloji basqılar azalmış, həmin dövrdə "Şərq qapısı" qəzeti də azərbaycançılıq ideologiyasını təbliğ edən yazılarla çıxış etmişdir [6].

1920-ci ilin iyul ayında Naxçıvanda sovet hakimiyyəti quruldu və bu hadisə ədəbi mühitdə xüsusi mürəkkəbliklə müşahidə olundu. Təqiblər, repressiyalar yüzlərlə ziyalını dərbədər saldı. sosialist ideologiyasının şəriksiz hökmranlığı naminə hər cür bəd əməllərə əl atılması yaradıcı adamları olduqca çətin şəraitdə işləməyə məcbur edirdi. Qocaman şairlərdən Ə.Məhbus, Məhəmməd Rəsizadə, Molla Mahmud Çakər öz şeirləri ilə yeni quruluşa rəğbətini bildirməyə çalışırdı. Gənclər isə vədlərə inanıb həvəslə yaradıcılığa başlayırdılar. Quruluşu tərənnüm edən ədəbi qüvvələr üçün münbit şərait yaradılması məqsədilə 1921-ci il noyabrın 11-də Naxçıvanda "Cavanlar həyatı" adlı qəzet nəşrə başladı. Bir qədər sonra bu qəzet "Füqəra səsi" adı ilə nəşrini davam etdirir (Şura Cümhuriyyətinin orqanı kimi). 1922-ci ilin aprelində isə qəzet "Şərq qapısı" adı ilə nəşr olunur. 1925-26-cı illərdə Əvəz Sadıq, Abbas Gülməmmədov, Eyyub Abbasov, Məşdi Babayevin təşəbbüsü ilə Naxçıvanda "Gənc qələmlər" ədəbiyyat dərnəyi təşkil edilib. Qeyd edək ki, ədəbi gəncliyin inkişafında "Şərq qapısı" qəzeti də az rol oynamırdı. Lətif Hüseynzadə, Məmməd Əkbər, Seyid Səbri, Nemət Hüseynov, Məmmədəli Tarverdiyev, Məmməd Hüseyn Təhmasib və başqaları maraqlı yazıları ilə mətbuatda tez-tez çıxış edirdilər [3, s.7-8].

Naxçıvanda davamlı şəkildə nəşr edilən mətbuat orqanı "Şərq qapısı" qəzetidir. "Cavanlar həyatı" və "Füqəra səsi" qəzetləri diyarda qəzetçilik işinin ilk məşqlərini, təməlini təşkil edir. "Şərq qapısı" isə uzun illər fəaliyyət göstərərək mətbuat sahəsində öz məktəbini yaratmış mətbuat orqanıdır. Bu qəzet 1922-ci ilin aprel ayından etibarən kiçik fasilələrlə bu günədək fəaliyyətini uğurla davam etdirməkdədir. "Şərq qapısı" qəzeti Naxçıvan Xalq Komissarlar Şurasının dəstəyi ilə nəşrə başlamışdır. Bu qəzetə keçən əsrin iyirminci-otuzuncu illərində Həmid Mahmudov və Əhməd Haşımov, Həsən Əlizadə, Əvəz Sadıq, Abbas Gülməmmədov və başqaları redaktorluq etmişlər. Otuzuncu illərin axırlarında ölkədə ictimai-siyasi hadisələrin gərginliyi ilə əlaqədar olaraq "Şərq qapısı" qəzetinin redaktorları tez-tez dəyişməli olmuşdur. 1937-ci il ərzində "Şərq qapısı" qəzetində Hüseyn Mahmudov, Şirəli Şirəliyev, Ə.Hacızadə, Xəlil Əminov, Musa İsmayılovun təyin olunub işdən çıxarılması repressiya dalğasının əks-sədası idi.

Elm, ədəbiyyatşünaslıq və ədəbi tənqid də ədəbiyyat işi ilə yanaşı, həmişə "Şərq qapısı" səhifələrində özünə yer tapmışdır. Müəyyən dövr ərzində "Şərq qapısı" qəzetində ədəbiyyatşünaslıq işi yazıçı və şairlərin yubileyləri ilə əlaqədar çap edilən yazılarla məhdudlaşdırılmışdır. Lakin əksər hallarda "Şərq qapısı"nda bu regionda yaşayıb-yaratmış yazıçıların həyatı və yaradıcılığının əhəmiyyətli məqamlarına, açılmamış naməlum səhifələrinə geniş yer ayrılmışdır. "Şərq qapısı" qəzeti Naxçıvanda yaşayıb-yaratmış sənətkarları öyrənmək üçün ən mötəbər mənbədir. Qəzetdə yeni kitablar və tamaşalar haqqında verilən materiallar regionda ədəbi tənqidin inkişafına şərait yaradır. XX yüzillikdə və müasir mərhələdə Naxçıvanda formalaşmış tənqidçi və ədəbiyyatşünaslar da "Şərq qapısı"na borclu və minnətdardırlar. Tanınmış tənqidçi və ədəbiyyatşünaslardan Lətif Hüseynzadə, Yavuz Axundlu, İsa Həbibbəyli, Məhərrəm Cəfərli, Hüseyn Həşimli, Əsgər Qədimov, Elbəyi Maqsudov, Fərman Xəlilov, Yusif Səfərov, Seyid Surə, İman Cəfər, Seyfəddin Eyvazov, Əbülfəz Əzimli, Ramiz Qasımov və başqaları "Şərq qapısı" məktəbinin mühitində yetişib formalaşmışlar. Tanınmış tarixçi və arxeoloq alimlər, dilçilər və təbiət elmlərini təmsil edənlərin də inkişafında "Şərq qapısı" qəzeti xüsusi yer tutur. Akademik İsmayıl Hacıyev, Tariyel Talıbov, Qadir Qədirzadə, Hacı Fəxrəddin Səfərli, Əbülfəz Quliyev, Zəhmət Şahverdiyev, Sevindik Vəliyev, Vəli Baxşəliyev, Ağarza Rüstəmov, Musa Quliyev, Emin Arif, Nazim Bababəyli, Qadir Əliyev və

onlarla başqaları da "Şərq qapısı"ndan çıxmış, böyük elmə vəsiqə almışlar. Xüsusən son illərdə Naxçıvan Dövlət Universitetində və Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsində elmin müxtəlif sahələrinin inkişafı öz növbəsində "Şərq qapısı" qəzetində elmi materialların və informasiyaların meydanının nəzərəçarpacaq səviyyədə genişlənməsinə təkan vermişdir. Beləliklə, "Şərq qapısı" Muxtar Respublikada elmi məktəb funksiyalarını da yerinə yetirir" [2].

"Keçən yüzilliyin 20-ci illərində Naxçıvanın tarixi, tarix-mədəniyyət abidələri haqqında "Şərq qapısı" qəzetində bir sıra müəlliflər müxtəlif məzmunlu məqalələr dərc etdirmişlər. Həmin məqalə müəllifləri, əsasən, 1925-ci ildə Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin şöbəsi kimi yaradılan Naxçıvanı Tədqiq və Tətəbbö Cəmiyyətinin üzvləri olmuşlar. Həmin insanlar həmin cəmiyyətin üzvü kimi fəaliyyət göstərir, Naxçıvan ərazisindəki tarix-mədəniyyət abidələrini tədqiq edir, tədqiqatlarının nəticələrini qəzet və jurnallarda dərc etdirirdilər. Onlar, həmçinin elmi-tədqiqat məqsədilə Naxçıvana gələn alimlərlə birgə çalışırdılar.

Naxçıvan diyarının maddi mədəniyyət nümunələri ilə əlaqədar "Şərq qapısı" qəzetinin səhifələrində məqalələr dərc etdirən həmin ziyalılardan biri Mirbağır Mirheydərzadə olmuşdur. Ərəb və fars dillərinə dərindən bələd olan, Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin Naxçıvan şöbəsi yaradılarkən onun elmi katibi təyin edilən, az sonra Naxçıvan Dövlət Tarix Muzeyinin qurucularından birinə çevrilən Mirbağır Mirheydərzadə "Şərq qapısı" qəzetinin və jurnalların səhifələrində Naxçıvanın tarixi və tarix-mədəniyyət abidələri haqqında məqalələr dərc etdirmişdir. Onun bu sahə ilə əlaqədar ilk məqalələrindən biri qəzetin 8 sentyabr 1925-ci il tarixli nömrəsində işıq üzü görən "İşə başlamalıyız" adlı məqaləsidir. Naxçıvan ziyalılarına müraciət şəklində qələmə alınan məqalədə Mirbağır Mirheydərzadə Naxçıvan ziyalılarını cəmiyyətin işində fəal iştirak etməyə çağırırdı" [4].

Bunu da qeyd edək ki, AMEA-nın Naxçıvan Bölməsi Əlyazmalar Fondunun baş direktoru, filologiya elmləri doktoru Fərman Xəlilov Mirbağır Mirheydərzadəyə "Fədakar ölkəşünas: Hacı Mirbağır Mirheydərzadə" adlı monoqrafiya həsr edib. Monoqrafiya "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi tərəfindən çap olunub. Əsərin "Mirbağır Mirheydərzadənin elmi yaradıcılığı" başlıqlı sonuncu fəslində vətənpərvər elm xadiminin təxminən 100 il bundan əvvəl ərsəyə gətirdiyi və uzun illər diqqətdən kənarda qalan "Naxçıvan tarixi" adlı monoqrafiyası ilk dəfə olaraq tədqiqata cəlb edilib. Bu fəsildə M.Mirheydərzadənin adıçəkilən monoqrafiyasında Naxçıvan bölgəsinin qədim dövrlərdən başlayaraq 1920-ci ilədək tarixi, etnoqrafiyası, maddi mədəniyyət nümunələri, epiqrafik abidələri, xalq adət-ənənələri ilə bağlı apardığı araşdırmalarının nəticələri sistemli şəkildə tədqiq olunaraq dəyərləndirilib.

XX əsrin 30-cu illəri Azərbaycanın da daxil olduğu keçmiş Sovet İttifaqında kollektivləşmə, kolxoz quruculuğu dövrü kimi xarakterizə olunur. Kollektivləşmə siyasətinin həyata keçirilməsi başlıca məsələlərdən birinə çevrilirdi. Bu dövrdə Naxçıvanın siyasi həyatı daha gərgin keçirdi. Belə bir dövrdə mətbuatın üzərinə xüsusi missiya düşürdü. Məhz bu illərdə rayonlarda da yerli mətbuatın təməli qoyulur. Naxçıvan Muxtar Respublikasının Şərur ("Pambığa doğru", 1931), Ordubad ("Ordubad fəhləsi", 1932), Əbrəqunus ("Zərbəçi heyvandar", 1932), Culfa ("Bolşevik yolu", 1932) və Şahbuz ("Sosializm maldarlığı", 1936) rayonlarında yerli qəzetlər nəşrə başlayır.

Qəzet mətbəələrində texniki prosesi yaxşılaşdırmaq məqsədilə 1934-cü ilin yayında Bakı poliqrafiya tresti rayon və siyasi şöbə qəzetlərinin mətbəələri üçün birillik kurs təşkil etdi. Bu kursu bitirənlər sırasında Naxçıvanın rayon qəzetlərinin əməkdaşları da var idi. Və bununla qəzetlərin normal nəşri təmin olunmağa başlandı.

Sovet dövrü Naxçıvan Muxtar Respublikasının rayon qəzetlərində mətbuatın güclü bir təbliğat-təşviqat vasitəsi olduğu açıq-aşkar hiss edilir. Bu dövrdə zəhmətkeş insanların fəaliyyətini əks etdirən yazılara gen-bol yer verilirdi. "Tərəvəzçi Gülzar", "Sağıcı Məsmə", "Qaynaqçı Vəli", "İpəkçi Elenora", "Mürəbbə ustası Məhəbbət", "Çoban Mahmud" və yüzlərlə belə başlıqlı yazılarda





kollektivləşmədə zəhmətkeşlərin fəaliyyəti və ayrı-ayrı istehsal sahələrində uğur qazanmış insanların işləri ön plana çəkilirdi.

Rayon qəzetlərinin II Dünya müharibəsi dövründəki fəaliyyəti də maraqlıdır. Həmin dövrdə muxtar respublikanın rayon qəzetlərində ("Pambığa doğru", "Zərbəçi heyvandar", "Bolşevik yolu", "Ordubad işçisi", "Sosializm maldarlığı") çalışan müxbirlər öz qələmlərini süngü ilə əvəz etdi. Qəzetlər müxtəlif səpkili yazılarla öz oxucularını qələbəyə ruhlandırır, mübarizəyə səsləyirdi. "Hər şey cəbhə üçün!", "Qəhrəmanlar ölmürlər!", "Onun rəşadəti", "Cəbhə xəbərləri" və başqa rubrikalar altında verilən yazılarda vətən oğullarının döyüş cəbhələrindəki misilsiz hünərindən, iradəsindən söz açılır, döyüşçülərin hünərinə mütəşəkkil səhifələr həsr olunurdu" [1].

2022-ci ildə "Şərq qapısı" qəzetinin nəşri tarixi və inkişaf yolu" kitabı nəşr olunub. Kitabın ilk səhifələrində Ümummilli lider Heydər Əliyevin qəzet haqqında fikirləri, Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin "Şərq qapısı" qəzetinin 100 illik yubileyinin qeyd olunması barədə" Sərəncamı və təsdiq olunmuş "Tədbirlər Planı"nın mətnləri verilib. Ulu öndərin: "Mən "Şərq qapısı" qəzetinin təsiri altında tərbiyələnmişəm. Hələ gənc ikən burada orta məktəbdə, pedaqoji texnikumda oxuyanda müxtəlif məsələləri öyrənmək üçün "Şərq qapısı"ndan çox istifadə etmişəm. O vaxtdan nüfuzlu qəzet kimi hafizəmdə qalıb", – sözləri 100 yaşlı söz məbədinin daşıdığı tarixi missiyadan, gənc nəslin vətənpərvər ruhda tərbiyəsindəki mühüm rolundan xəbər verir. Öz profilinə daim sadiq qalan "Şərq qapısı" bu şərəfli missiyanı hələ sovet dönəmindən məsuliyyətlə yerinə yetirmiş, göstərilən təzyiqlərə baxmayaraq uğurla fəaliyyətinə davam etmişdir [5].

Bu gün muxtar respublikada 8 rayon (şəhər) qəzeti – "Şərurun səsi" (1931 – Şərur), "El həyatı" (1932 – Ordubad), "Arazın səsi" (1932 – Culfa), "Oğuz səsi" (1936 – Şahbuz), "Şərqin səhəri" (1979 – Babək), "Nuh yurdu" (1996 – Naxçıvan şəhəri), "Oğuz yurdu" (2000 – Sədərək) və "Yeni həyat" (2005 – Kəngərli) qəzetləri dərc olunur. Naxçıvanın rayon mətbuatı fikir plüralizmini, əqidə, söz azadlığını, dövlətçilik amalını özünün başlıca meyarları hesab edərək ictimai-siyasi prosesləri operativ və tərəfsiz əks etdirməyə çalışan, milli maraqları üstün tutan mətbuat orqanları kimi fəaliyyət göstərir.

XX əsrin 90-cı illərinin əvvəllərində "Şərq qapısı" qəzeti müstəqillik ideyalarının həyata keçirilməsində fəal mübarizə aparmışdır. Ümummilli liderimiz Heydər Əliyevin Moskvadan Naxçıvana qayıdışından sonra "Şərq qapısı"nın həyatında yeni dövr başlanmış, 1990-1993-cü illərdə qəzet Azərbaycanın çoxsaylı mətbu orqanları arasında birinci olaraq ölkəmizin düşdüyü bəlalardan yeganə xilas yolunu görkəmli dövlət xadimi Heydər Əliyevin yenidən siyasi hakimiyyətə qayıdışında görmüş, bu mövzuda yazılarla çıxış etmiş, muxtar respublikanın düşdüyü informasiya blokadasının aradan qaldırılmasında mühüm rol oynamışdır.

Yuxarıda qeyd edildiyi kimi, "Şərq qapısı" qəzeti ilk dəfə "Cavanlar həyatı" adı ilə oxucuların görüşünə gəlsə də, həmin il dekabr ayının sonundan 1922-ci ilin yanvarınadək "Füqəra səsi", 1922-ci ilin aprelindən 1980-ci ilin yanvarınadək "Şərq qapısı" adlanmışdır. 1980-ci ildə "Sovet Naxçıvanı" adlanan qəzet rus dilində "Советская Нахичевань"" adlı dublikatı ilə birlikdə buraxılmışdır.

"Şərq qapısı" qəzetinin 1923-1926-cı illərdə böyük oxucu kütləsi qazanmağında Səkinə Rasizadə, Siddiqə Bağırova, Qəşəng Kəngərli, Rübaba Sadıqova, Məmurə Rəhmiyeva, Xanım Mehdiyeva, Qəmər Nəcəfzadə, Rübabə Nəsirbəyova, Güllər Ənnağıyeva, Tərlan Kazımbəyova, Fatma Rəhimova, Şövkət İskəndərova kimi qadın müxbirlərin də müstəsna xidmətləri olmuşdur.

## Nəticə / *Conclusion*

Bildiyimiz kimi, Azərbaycan xalqı min ildən yuxarı bir dövrdə ərəb əlifbası ilə yazıb-oxumuşdur. Bu səbəbdən də "Şərq qapısı" 1930-cu ilədək ərəb əlifbası ilə dərc edilmiş, lakin sovetlər birliyinin ilk illərində əlifba dəyişdiyinə görə, 1930-1940-cı illərdə latın, 1940-cı ildən isə əlifba-

mız kiril əlifbasına keçdiyinə görə, 2001-ci ilin iyununadək kiril əlifbası ilə çap olunmuşdur. Qəzet həmin dövrdən indiyədək isə latın qrafikalı əlifba ilə nəşr edilir. 1989-cu ildən qəzet fəaliyyətini "Şərq qapısı" adı ilə davam etdirir. Qəzetin təşəkkülünə, onun üçün jurnalist kadrların hazırlanmasına Xalq yazıçıları M.İbrahimov və Ə.Vəliyev səy göstərmişlər. Ə.Vəliyev 1933-1934-cü illərdə qəzetin redaktoru olmuşdur. "Şərq qapısı" nəşrə başlayandan Naxçıvan MR-in ictimai-siyasi, iqtisadi, sosial və mədəni həyatının güzgüsü olmuş, onun tərəqqi və yüksəlişində fəal və mühüm rol oynamışdır. Qəzet 50 illik yubileyində "Şərəf nişanı" ordeni ilə təltif olunmuşdur. XX əsrin 70-80-ci illərində "Şərq qapısı" qəzetinin gündəlik və böyük formatda nəşri təmin edilmişdir.

XX əsrin 90-cı illərinin əvvəllərində Naxçıvanda mətbuat müstəqillik ideyalarının həyata keçirilməsində fəal mübarizə aparmışdır. Yuxarıda qeyd olunduğu kimi, Ümummilli liderimiz Heydər Əliyevin Moskvadan Naxçıvana qayıdışından sonra dövri mətbuat nümunələrinin həyatında yeni dövr başlanmış, çoxsaylı mətbu orqanları ölkəmizin düşdüyü bəlalardan yeganə xilas yolunu görkəmli dövlət xadimi Heydər Əliyevin yenidən siyasi hakimiyyətə qayıdışında görmüş, bu mövzuda yazılarla çıxış etmiş, Muxtar Respublikanın düşdüyü informasiya blokadasının aradan qaldırılmasında mühüm rol oynamışlar.

**Ədəbiyyat / *References***


1. Babayev, M. Naxçıvanda bölgə mətbuatı: tarix və müasirlik. https://nuhcixan.az/news/cemiyyet/30455-naxcivanda-bolge-metbuati-tarix-ve-muasirlik
2. Həbibbəyli, İ. "Şərq qapısı" məktəbi: uzaqdan və yaxından. https://525.az/news/67496-serq-qapisi-mektebi-uzaqdan-ve-yaxindan.
3. Saraclı (Həsənova), M. Naxçıvan Ədəbi Mühitindən. – Bakı: – 2007, – 80 s.
4. Səfərli, H.F. "Şərq qapısı" qəzetinin nəşrinin ilk illərində Naxçıvanın tarix-mədəniyyət abidələri haqqında məlumatlar. https://ntv. az/news/cemiyyet/52011-serq-qapisi-qezetinin-nesrinin-ilk-illerinde-naxcivanin-tarix-medeniyyet-abideleri-haqqinda-melumatlar
5. "Şərq qapısı" qəzetinin nəşri tarixi və inkişaf yolu" kitabı nəşr olunub. https://botany.az/az/news/2397
6. Tahirli, S. Naxçıvan mətbuatı: tarixdən bu günə və müasir tendensiyalar https://ntv.az/news/cemiyyet/88559-naxcivan-metbuati-tarixden-bu-gune-ve-muasir-tendensiyalar


## Обзор истории печати Нахчывана

***Нахчыванская Автономная Республика – 100***


**Вугар Ахмед**
Доктор филологических наук, профессор
Институт литературы имени Низами Гянджеви НАНА
E-mail: vuqar.ehmed.63@mail.ru



**Резюме.** В статье говорится о создании прессы в Нахчыване в конце XIX – начале XX вв. и обусловивших главных факторах и истории развития. В исследовании затронут вопрос истории в ряду печатных органов Азербайджана единственной издаваемой без перерыва в течение почти целого столетия газеты "Ворота Востока", деятельность которой открыла почётную дорогу прессы к новому этапу. В статье также исследование проведено сквозь призму анализа усиления стремления к развитию печати в Нахчыване, заботы о печати







выдающегося лидера Гейдара Алиева в течение обоих этапов руководства Азербайджаном. В ряду изучаемых тем выделена роль знаменосца азербайджанской печати газеты "Ворота Востока" в обретении новой формы и содержания в годы Независимости и упорядочении отношений государства и масс-медиа.

В начале 90-х годов XX века в Нахчыване велась активная борьба за претворение в жизнь идей независимой печати. Как отмечалось выше, в жизни периодических изданий начался новый период после возвращения из Москвы в Нахчыван общенационального лидера Гейдара Алиева. Множество печатных органов видели единственно верный путь выхода из бесчисленных бед нашей страны в возвращении выдающегося государственного деятеля к политической власти, выступали с публикациями на эту тему, играли большую роль в устранении информационной блокады вокруг Автономной Республики.


**Ключевые слова:** Нахчыван, печать, газета, корреспондент, рубрика